KAMAL ADIGÖZƏLOV

# QƏRBİ AZƏRBAYCAN
## GEOSİYASİ FAKTOR KİMİ: İDEYANIN İNTİBAHI

**Hörmətlə,**



*"İndi Ermənistan adlanan ərazi,*
*Qərbi Azərbaycan – İrəvan mahalı, Göyçə mahalı,*
*Zəngibasar mahalı, Zəngəzur mahalı – bunlar hamısı*
*müsəlmanlar, azərbaycanlılar yaşayan diyarlar olubdur".*

**HEYDƏR ƏLİYEV**



*"Təkcə XX əsrin əvvəllərində çar Rusiyası tərəfindən dərc*
*edilmiş xəritələrə baxmaq kifayətdir hər kəs görsün ki, indiki*
*Ermənistan ərazisində toponimlərin mütləq əksəriyyəti*
*Azərbaycan mənşəlidir".*

**İLHAM ƏLİYEV**

KAMAL ADIGÖZƏLOV

# QƏRBİ AZƏRBAYCAN GEOSİYASİ FAKTOR KİMİ: İDEYANIN İNTİBAHI

Bakı – 2025

| | |
|---|---|
| Elmi məsləhətçi və ön sözün müəllifi: | **Nizami Cəfərov** AMEA-nın həqiqi üzvü, professor |
| Elmi redaktor: | **Elçin Əhmədov** siyasi elmlər doktoru, professor |
| Rəyçilər: | **Hikmət Babaoğlu** siyasi elmlər doktoru, professor |
| | **Hicran Hüseynova** siyasi elmlər doktoru, professor |
| | **Kərim Şükürov** tarix elmləri doktoru, professor |
| | **Elçin Süleymanov** iqtisad üzrə fəlsəfə doktoru, dosent |

**K.Ə. Adıgözəlov. Qərbi Azərbaycan geosiyasi faktor kimi: ideyanın intibahı.** Monoqrafiya. – Bakı: Mütərcim, – 2025. – 304 s.

Kitab Qərbi Azərbaycanın geosiyasi faktor kimi politoloji təhlilinə həsr edilmişdir. Əsər müasir beynəlxalq münasibətlərə aid təlimlər əsasında müəyyən edilmiş yanaşma üzrə aparılan tədqiqatın nəticəsidir. Tədqiqat zamanı tarixi, siyasi və geosiyasi aspektlərin qarşılıqlı əlaqəsi prinsipinə diqqət yetirilmişdir.

Kitabda Qərbi Azərbaycan məsələsi bütövlükdə antiazərbaycan siyasəti prizmasından araşdırılır. Bir neçə yüzil ərzində imperialist dairələrin Qərbi Azərbaycana və Qərbi azərbaycanlılara qarşı həyata keçirdikləri siyasət nəticəsində demoqrafik, mədəni, humanitar, toponim və ərazi faktoru ilə bağlı meydana gələn problemlər nəzərdən keçirilir.

Əsərin araşdırma istiqaməti XVIII əsrin ikinci yarısından başlayaraq XXI əsrin üçüncü onilliyinə qədər olan dönəmdə Qərbi Azərbaycan məsələsinin geosiyasi faktor kimi müxtəlif aspektlərdə necə dərk edilməsi ilə sıx bağlıdır. Burada sovet dövrünün təhlilinə xüsusi yer ayrılmışdır. Bu, Millətlər Liqası və BMT-nin Qərbi Azərbaycanla bağlı mövqelərinin konkret sənədlər üzrə araşdırılması ilə müşayiət olunur.

Kitabda Qərbi Azərbaycan məsələsinin müstəqil Azərbaycan dövlətçiliyi kontekstində tədqiqində Ulu Öndər Heydər Əliyevin strateji yanaşmasının oynadığı rol xüsusi tədqiq edilir. Bununla yanaşı, Prezident İlham Əliyevin problemin XXI əsrin yeni çağırışları fonunda qoyulması və dərk edilməsi ilə bağlı əvəzsiz töhfələri təhlil edilir.

Kitab Azərbaycanın milli dövlətçilik tarixinin tədqiqatçıları, müasir mərhələdə Qərbi Azərbaycanın geosiyasi faktor kimi araşdırılmasına maraq göstərənlər, müəllimlər, tələbə və doktorantlar, siyasətçilər, dövlət qulluqçuları və bütövlükdə geniş oxucu auditoriyası üçün nəzərdə tutulmuşdur.

ISBN: 978-9952-28-791-2

© K.Ə.Adıgözəlov, 2025

*Qərbi Azərbaycan nisgili ilə dünyadan köçmüş bütün insanların xatirəsinə ithaf olunur.*

# MÜNDƏRİCAT

ÖN SÖZ .......... 9
GİRİŞ .......... 15

I FƏSİL. QƏRBİ AZƏRBAYCAN DEMOQRAFİK EKSPANSİYA VƏ ERMƏNİ TERRORUNUN HƏDƏFİNDƏ: TARİXİ-SİYASİ ASPEKT .......... 34
1. Tarix və siyasət .......... 34
1.1. XIX əsrin ikinci yarısı: türk faktoru imperiyaların caynağında .......... 35
1.2. "Armenakan", "Hnçak" və "Daşnaksütyun": üç terror təşkilatının cinayətləri .......... 39
2. Demoqrafik ekspansiya və toponimlərə qarşı etnosid siyasəti .......... 43
2.1. Demoqrafik tərkibin dəyişdirilməsi .......... 43
2.2. Azərbaycan tarixi-mədəni irsinin saxtalaşdırılması .......... 45
3. XX əsrin əvvəllərində "Böyük Ermənistan" iddiaları və azərbaycanlılara qarşı soyqırımı siyasəti .......... 48
3.1. 1905-1906-cı illər qanlı cinayətlərin başlanğıcı kimi .......... 48
3.2. 1918-1920-ci illərdə kütləvi qırğınların genişlənməsi .......... 51
3.3. 1919-cu il erməni terror vəhşətləri: "Nemezis" əməliyyatı – Daşnaksütyun" partiyasının soyqırımı və terror siyasətinin tərkib hissəsi .......... 54
3.4. Qısa ümumiləşdirmə: azərbaycanlılara qarşı soyqırımı siyasətinin nəticələri .......... 60
4. Qərbi Azərbaycan məsələsinin gündəmə gətirilməsi .......... 62

II FƏSİL. YENİ MƏRHƏLƏ: 1920-1953-CÜ İLLƏRİN ANTİAZƏRBAYCAN SİYASƏTİ .......... 71
1. Qanlı 1920-ci il: yeni fəlakətlərin başlanğıcı .......... 71
2. Antiazərbaycan siyasəti və sovetlərin repressiv idarəçiliyi (1920-1936-cı illər) .......... 76
3. İkinci Dünya müharibəsi və Qərbi Azərbaycan məsələsi .......... 80
4. Növbəti fəlakət dalğası: 1948-1953-cü illər – planlı və kütləvi deportasiya .. 84





III FƏSİL. DEPORTASİYA VƏ GEOSİYASƏT .......... 90
1. "Deportasiya" anlayışı haqqında .......... 95
2. Deportasiyanın "geosiyasi polifoniyası" .......... 98
3. Mədəni və mənəvi-psixoloji soyqırımı .......... 102
4. Azərbaycanlı kadrların soyqırımı mahiyyətli "yenilənməsi" .......... 104
5. SSRİ rəhbərliyinin kütləvi və zorakı deportasiyaya "yenidənqurma, aşkarlıq və demokratiya" kontekstində baxışı .......... 107
6. Milli ayrı-seçkilik: siyasi ənənənin davamı .......... 108
6.1. 1954-1956-cı illərdə deportasiya siyasəti .......... 109
6.2. Beynəlxalq aləmin gücsüzlüyü .......... 112
6.3. SSRİ-nin beynəlxalq sənədlərə laqeydliyi: siyasi və geosiyasi kontekst. 115

IV FƏSİL. AZƏRBAYCANLILARA QARŞI SOYQIRIMLAR: MİLLƏTLƏR LİQASI VƏ BMT-nin MÜNASİBƏTİ .......... 117
1. Millətlər Liqası: tarixi-geosiyasi zərurət, yoxsa qrup mənafeyi? .......... 117
1.1. Bir-biri ilə savaşan iki qütb .......... 119
1.2. Millətlər Liqasının sənədlərində qaçqınların statusu .......... 121
1.3. 1922-ci və 1924-cü il sazişləri: siyasi və geosiyasi mahiyyəti .......... 123
2. Millətlər Liqası və BMT-nin qaçqınlar məsələsinə münasibəti .......... 127
2.1. İmperialist qüvvələrin geosiyasi maraqları .......... 128
2.2. Beynəlmiləlçiliyin iç üzü: eyni dövlətin tərkibində "xalqlar dostluğu" və repressiya .......... 131
3. Qərbi Azərbaycanda mədəni irs soyqırımı: XX əsrin ikinci yarısından SSRİ-nin süqutunadək .......... 136
3.1. Azərbaycan toponimlərinə qarşı mədəni soyqırımı siyasəti .......... 140
3.2. Ərazi, demoqrafik, toponimik cinayətlər və mədəni soyqırımlar .......... 143
4. Mənəvi genosid: növbəti dalğa .......... 146
4.1. 1988-1991-ci illər deportasiyası geosiyasi müstəvidə .......... 151
4.2. Ərazi genişləndirilməsinin geosiyasi anlamı .......... 152

V FƏSİL. QƏRBİ AZƏRBAYCAN MƏSƏLƏSİNƏ HEYDƏR ƏLİYEV YANAŞMASININ ÖZƏLLİKLƏRİ .......... 156
1. Ərazi dəyişiklikləri və dövlətin geosiyasi statusu .......... 156

1.1. Azərbaycan ərazilərinin məqsədli "kiçildilməsi"......157
1.2. Ərazi, demoqrafiya və geosiyasi status......159
1.3. 1991-1993-cü illər: dövlət idarəçiliyinin uçurumu......160
1.4. 1993-cü ilin iyunundan başlayan milli təəssübkeşlik......162
2. Ərazi bütövlüyü: Qərbi Azərbaycan məsələsinə Heydər Əliyevin qətiyyətli siyasi yanaşması fonunda......165
3. Qərbi Azərbaycan məsələsinin mürəkkəbliyi dövrü......174
3.1. Heydər Əliyevin Qərbi Azərbaycan məsələsinə mühüm töhfəsi......179
4. Qərbi Azərbaycan: yeni konseptual baxış......182
5. Qərbi Azərbaycanla bağlı mühüm yeni özəllik......190
5.1. Qərbi Azərbaycan: tarixi ədalət müstəvisində......192
5.2. Qərbi Azərbaycan məsələsinə akademik yanaşma......195
5.3. Qərbi Azərbaycan: yeni fəaliyyət istiqamətləri işığında......196
5.4. Hüquqi aspekt: paritetin təmini......197

**VI FƏSİL. BÖYÜK QAYIDIŞIN AYAQ SƏSLƏRİ......200**
1. Tarixi dönüş: Azərbaycan dövlətçiliyi yeni statusda......199
2. 200 il davam edən ədalətsizliyin acı nəticələri: rədd edirik!......202
3. Qayıdış Konsepsiyasının məqsəd və prinsipləri......203
4. Yeni yanaşma: tarixi və hüquqi aspektlərin sintezi......205

**VII FƏSİL. QƏRBİ AZƏRBAYCAN PREZİDENT İLHAM ƏLİYEVİN YENİ TARİXİ MƏRHƏLƏDƏKİ DÖVLƏTÇİLİK SİYASƏTİ KONTEKSTİNDƏ......209**
1. Yeni dövlətçilik siyasəti......208
2. Beynəlxalq etiraf......210
2.1. Beş əsas prinsip......211
3. Prezident sözü: tarix, hüquq və ədalət......213
3.1. Yeni reallıq: ermənilər üçün sülhün alternativsizliyi......217
3.2. Müdrik siyasi-strateji seçim......218
4. Qərbi Azərbaycana qayıdış tarixi ədalətin və insan hüquqlarının zəruri tələbidir......220
4.1. Qanunun aliliyinin gücləndirilməsi......224
4.2. Xankəndidə səslənən fikir......225
4.3. Qərbi Azərbaycan tarixi Azərbaycandır!......226
4.4. Dünya miqyasında hüquqların təminatı vəziyyəti......229
4.5. Dövlətlərarası iddialardan imtina......231

**VIII FƏSİL. QƏRBİ AZƏRBAYCAN İCMASI: MİLLİ VƏ BEYNƏLXALQ MİQYASLARIN VƏHDƏTİ......234**
1. Qərbi Azərbaycan İcması beynəlxalq münasibətlərin aktoru kimi......233
1.1. Azərbaycan çərçivəsində fəaliyyət......233
1.2. Beynəlxalq miqyas......234
1.3. İcmanın bir neçə mühüm vəzifəsi......237
1.4. Rəqəmsal platforma......237
1.5. Hüquqi aspekt......238
1.6. Tarixi həqiqətlər və elm......240
1.7. Qayıdış konsepsiyasının zəruriliyi......241
2. Diplomatik korpusun iştirakı ilə keçirilən tədbirlər və konfranslar......243
2.1. Bir neçə nümunə......243
2.2. Qərbi azərbaycanlılarla bağlı xüsusi vəziyyət......245
2.3. 2023-cü il tədbiri: Azərbaycanda qaçqın məsələsi......246
2.4. 2024-cü il: qayıdış hüququ və qaçqınlıq problemləri......246
2.5. 2025-ci il: haqqın izi ilə......247
2.6. Qərbi Azərbaycan: beynəlxalq konfranslar işığında......248
3. Beynəlxalq təşkilatlarla əlaqələr......253
3.1. Sistemlilik və vahid siyasi yanaşma......253
3.2. İqtisadi, Sosial və Mədəni Hüquqlar Haqqında Beynəlxalq Paktın icrasına dair Ermənistanın BMT-yə dördüncü dövri hesabatı......254
3.3. Cenevrə: Azlıqların Məsələləri üzrə Forum......255
3.4. Sinxronluq......256
3.5. Siyasi, tarixi, hüquqi, geosiyasi, mədəni, mənəvi, demoqrafik cəhətlərin sıx əlaqəsi......256
3.6. Beynəlxalq təşkilatların zirvə görüşlərinin yekun sənədlərində Qərbi Azərbaycan İcmasına istinadlar......257
3.7. Beynəlxalq təşkilatlar və qurumlara müraciətlər......262

4. Qərbi Azərbaycan İcması: parlament, media, elm və hüquqi istiqamətlərdə fəaliyyət....264
4.1. Qərbi Azərbaycan İcması və Milli Məclis....264
4.1.1. Qərbi Azərbaycana Qayıdış üzrə Təşəbbüs Qrupu....265
4.2. Media istiqaməti....269
4.2.1. Qərbi Azərbaycan Televiziyası....269
4.3. Qərbi Azərbaycan tədqiqatları....270
4.3.1. Elmi mərkəzlərdə Qərbi Azərbaycan məsələsinin yeri və rolu....270
4.3.2. Qərbi Azərbaycanla bağlı yeni şöbələr....270
4.3.3. "Qərbi Azərbaycan Ensiklopediyası"....272
4.3.4. Ali təhsil müəssisələrində Qərbi Azərbaycan tədqiqatları....273
4.4. Hüquqi aspekt....274
4.4.1. Erməniçilik saxtakarlıqları və uydurmalarının ifşası....274
4.4.2. Soyqırımı, etnik təmizləmə və deportasiya cinayətləri: Ermənistanın beynəlxalq hüquqi məsuliyyəti....274
4.4.3. Qərbi Azərbaycana mənsubluq: vətəndaşlıq vəziyyəti aktlarının qeydiyyatı qaydasında dəyişiklik....275

**NƏTİCƏ**....277
**SUMMARY**....292
**РЕЗЮМЕ**....297





# ÖN SÖZ

Qərbi Azərbaycan məsələsi Azərbaycan tarixinin (və taleyinin) ən ağrılı, eyni zamanda, uzun illər ərzində müxtəlif məqsədlərlə ən çox saxtalaşdırılmış, siyasi manipulyasiyalara məruz qalmış mövzularındandır. XIX əsrdən başlayaraq Cənubi Qafqazda gedən geosiyasi proseslər, imperiyaların toqquşması və etnik-siyasi mühəndislik siyasəti nəticəsində bölgənin tarixi-demoqrafik tərkibi məqsədyönlü şəkildə dəyişdirilmiş, azərbaycanlı əhali ardıcıl şəkildə terror, soyqırımı və deportasiyalara məruz qalmışdır. Tarixi ədalətin bərpası, bu hadisələrin obyektiv, sənədlərə əsaslanan elmi təhlili və beynəlxalq hüquq müstəvisində dəyərləndirilməsi bu gün milli (və dövlətçilik) baxımından strateji əhəmiyyət daşıyır.

Xalqımızın Ümummilli Lideri Heydər Əliyevin müəyyənləşdirdiyi strateji inkişaf kursunu uğurla davam etdirərək Azərbaycanı tarixinin ən qüdrətli mərhələsinə yetirən, ölkəmizin ərazi bütövlüyünə, suverenliyinə nail olan Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müəllifliyi ilə regionda yeni tarixi reallıqların yarandığı çağlarda Qərbi Azərbaycan məsələsi də son dərəcə aktualdır. Azərbaycanın və ümumilikdə Cənubi Qafqaz regionunun parlaq gələcəyi, bu torpaqlarda əbədi sülhün, dayanıqlı inkişafın, rifah və xoşbəxtliyin təmin olunması bütün digər amillərlə yanaşı, həm də Qərbi Azərbaycan məsələsinə düzgün münasibətin formalaşmasından, bu məsələnin ədalətli, düzgün (və strateji planda) həllindən asılıdır. Belə hallərin təqdim edilməsindən ötrü isə bu mövzuda mümkün qədər geniş tədqiqatlar aparılmalı, tarixi həqiqətlər qaranlıq arxiv qəfəslərindəki sənədlərdən gün işığına çıxarılmalı, kitablarda, məqalələrdə, filmlərdə və digər fak-

toloji materiallarda öz əksini taparaq müasir oxucuda, tamaşaçıda, dinləyicidə aydın, obyektiv qənaətin formalaşdırılmasına xidmət etməlidir.

Ümummilli Lider Heydər Əliyev bu xüsusda demişdir: "Müstəqil dövlətimiz üçün taleyüklü məsələlərin həyata keçirilməsi tariximizin bir çox qaranlıq səhifələrini açmaqla kimliyimizi tam müəyyən etməyi, milli kökləri ilə bağlı yeni təfəkkürlü gənc nəsil yetişdirilməsini zəruri edir".

Tariximizlə, o cümlədən Qərbi Azərbaycan tarixi ilə bağlı əhatəli tədqiqatların aparılması, gerçəklərin dünya ictimaiyyətinə düzgün çatdırılması Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin də elm adamları qarşısında qoyduğu əsas vəzifələrdəndir.

Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin qətiyyəti, sarsılmaz iradəsi, Ordumuzun gücü sayəsində Azərbaycan xalqı olaraq biz sadəcə torpaqlarımızın azadlığına, ölkəmizin ərazi bütövlüyü və suverenliyinə nail olmamışıq, eyni zamanda, bir neçə əsrin problemini yoluna qoymuşuq. Böyük imperiyaların hər dəfə zərurət yarandıqda ermənilərdən istifadə edərək regionu qan çanağına döndərib öz maraqlarını təmin etməkdən ötrü bu bölgənin bağrında açdıqları xərçəng kimi dəhşətli bir yaranı birdəfəlik kəsib atmağa, inkişafımızı əngəlləyən, xalqlar arasında düşmənçilik salan əngəli yolumuzdan kənarlaşdırmağa nail olmuşuq. Bunun nə qədər böyük tarixi nailiyyət olduğunu anlamaqdan ötrü aydın mənzərə region həqiqətlərini nəql edən fundamental kitablarda, sanballı əsərlərdədir. Unutmayaq ki, eyni müşkülün gələcəkdə də yaranmaması, qarşısının vaxtında alınması üçün ən təsirli hallər onun düzgün dərkindən, təfsilatlı şəkildə başa düşülməsindən, yayğın bir ifadəni yada salsaq, tarixin ibrət dərslərindən düzgün nəticə çıxarmaqdan başlanır.

Əlinizdəki kitab da məhz bu məqsədə xidmət edir. Müəllif Kamal Adıgözəlov çox böyük tədqiqatçı zəhməti bahasına başa gəldiyi dərhal duyulan "Qərbi Azərbaycan geosiyasi faktor kimi: ideyanın intibahı" kitabında Qərbi Azərbaycan məsələsini tarixi, siyasi, demoqrafik, hüquqi və geosiyasi aspektlərdə kompleks şəkildə araşdırır, iki əsrdən artıq bir dövrü əhatə edən faciəli prosesləri ardıcıllıq





(və sistemlilik) prinsipi əsasında tədqiq edir. Tədqiqatda yalnız hadisələrin xronologiyası deyil, həm də onların mahiyyətini müəyyən edən struktur amillər – imperiya siyasəti, ideoloji təbliğat, beynəlxalq münasibətlərdəki ikili standartlar, milli kimlik üzərində aparılan manipulyasiyalar və s. dərin elmi təhlilə cəlb olunur.

Hər bir tədqiqat əsərinin uğurunda onun düzgün strukturlaşdırılmasının, məzmunun ardıcıllıqla çatdırılmasının çox mühüm payı var. Bu baxımdan Kamal Adıgözəlov da əsərini son dərəcə mükəmməl şəkildə strukturlaşdırmış və əsərin dəqiq sistemliliyi onun öz elmi məqsədinə çatmasına kömək göstərmişdir.

Kitab 8 fəsildən ibarətdir. Birinci fəsil Qərbi Azərbaycanın XIX əsrin sonlarından etibarən demoqrafik ekspansiya və erməni terror siyasətinin əsas hədəfinə çevrilməsini tarixi-siyasi aspektdə araşdırır. Burada "Armenakan", "Hnçak" və "Daşnaksütyun" kimi təşkilatların terror fəaliyyəti, demoqrafik dəyişikliklər və toponimlərin etnosidə məruz qalması faktlar və mənbələr əsasında təhlil edilir. Bu fəsil Qərbi Azərbaycan məsələsini tarix (və siyasət) müstəvisində ayna kimi göstərir, XIX əsrin ikinci yarısı: türk faktorunun necə imperiyaların caynağına keçdiyi, "Armenakan", "Hnçak" və "Daşnaksütyun" kimi terror təşkilatlarının bu fonda törətdikləri cinayətlər əks olunur. Bu fəsildə azərbaycanlılara qarşı həyata keçirilən demoqrafik ekspansiya və toponimlərə qarşı etnosid siyasəti, bölgədə demoqrafik tərkibin dəyişdirilməsi, xalqımıza məxsus tarixi-mədəni irsin saxtalaşdırılması ilə bağlı danılmaz faktlar var.

Fəsil XX əsrin əvvəllərində "Böyük Ermənistan" iddiaları və azərbaycanlılara qarşı soyqırımı siyasəti, 1905-1906-cı illərdə həyata keçirilən qanlı cinayətlər və 1918-1920-ci illərdə kütləvi qırğınların daha da genişləndirilməsi, 1919-cu ilə aid erməni terror vəhşətləri, o cümlədən "Nemezis" əməliyyatı – "Daşnaksütyun" partiyasının soyqırımı və terror siyasətinin tərkib hissəsi kimi istiqamətlərə yönəlməklə dövrün aydın mənzərəsini yaradır. Bu fəsildə azərbaycanlılara qarşı soyqırımı siyasətinin nəticələri də ümumiləşdirilmiş, Qərbi Azərbaycan məsələsinin gündəmə gətirilməsi ilə bağlı elmi müddəalar irəli sürülmüşdür.



**Hörmətli oxucu,**

**“Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında” Azərbaycan Respublikası Qanununun 18-ci və 19-cu maddələrinə uyğun olaraq müəlliflik hüququnun qorunması məqsədilə əsərin tam mətni ilə Kitabxananın oxu zalında tanış ola bilərsiniz.**